# Kitabların dostu

*Müsahibimiz Ağdam rayonu Quzanlı kənd kitabxanasının müdiri Əbrə Abdullayevadır. O, 1936-cı ildə Qaradağlı kəndində anadan olub.*

Yeddinci sinfi də burada bitirib. Təhsilini Mahrızlıda davam etdirib. 1953-cü ildə orta məktəbi başa vurub və H.B. Zərdabi adına Gəncə Dövlət Pedoqoji İnstitutuna qəbul olunub. Hələ birinci kursda ikən ailə həyatı qurub və Ağcabədiyə köcüb, burada müəllim işləyib. Sonra qiyabi yolla kitabxanaçılıq təhsili də alıb. Dəfələrlə kənd sovetinin deputatı seçilib. 1957-ci ildən Quzanlı kənd kitabxanasının müdiri işləyir. 6 övlad anası, əmək veteranı, əməkdar mədəniyyət işçisidir.



Kitabxananın giriş hissəsində diqqətimizi ümummilli liderimiz Heydər Əliyevin müdrik kəlamı yazılmış bir stend cəlb edir: "Kitabxana xalq üçün, millət üçün müqəddəs bir yer, bilik, zəka mənbəyidir".

Ümumiyyətlə, kitabxanadakı səliqə-səhman göz oxşayır. Kitabxananın inkişaf tarixi ilə bağlı Əbrə xanım aşağıdakıları söylədi:

-Kitabxanamız 1930-cu ildə fəaliyyətə başlayıb. Mən təhvil götürənə kimi burada bir neçə müdir işləyib. Mənə qədər kitabxananın cəmi 3 min kitab fondu olub. 1957-ci ildən 1974-cü ilədək darısqal bir otaqda yerləşmişdir. Kitab rəfləri az idi. 17-18 il iş yerimdə heç bir istilik sistemi olmadan işləmişəm. 1974-cü ilin aprel ayında kənd soveti üçün tikilmiş binanın birinci mərtəbəsinə köçmüşəm. Bu binada 2 otaq kitabxananın ixtiyarına verilib. Oxu zalı və kitab fondu.

Quzanlı kənd kitabxanası mənim üçün əziz, doğma ünvana çevrildi. Cild-cild kitabların əhatəsində, kitab rəflərinin arasında həyatı daha dərindən anlamağa başladım. 1961-ci ildə bacarıqlı və təcrübəli təbliğatçı kimi mənə rayon mədəniyyət şöbəsi tərəfindən "Fəxri fərman" verildi, ən uğurlu addımlar da buradan başlandı. Məni müxtəlif vəzifələrdə işləməyə dəvət ediblər. Lakin mən öz sənətimdən ayrılmayacağımı bildirmişəm. Dəfələrlə fəxri fərmanlara və pul mükafatlarına layiq görülmüşəm. Bunların heç biri məni arxayın salmayıb. Bədii ədəbiyyata həvəsim çox olduğuna və ömrümü kitabxanaçılıq peşəsinə bağladığım üçün düşünürdüm: kitabxanaçı oxucu ilə kitab arasında mənəvi körpü vəzifəsini yerinə yetirməlidir.

1980-cı ilin axırına kimi kitabxanada tək işləmişəm. 1981-ci ildə mərkəzləşmə getdi və kitabxanaya işçi göndərildi. Mən həmişə arzu etmişəm ki, yanıma gələn işçi kitabı qorumağı, onu təbliğ etməyi, oxucu marağını öyrənməyi, onlarla mehriban rəftar etməyi, onları kitabxanaya cəlb etməyi bacarsın. Fikirləşirdiyim kimi də oldu. İkimizin də məqsədi, amalı, fikri birdir. 1981-ci ildən indiyə kimi bir yerdə mehriban işləyib bütün oxucuların və kənd əhalisinin istək və arzularını yerinə yetirir və onlara xidmət edirik. Hal-hazırda kitabxananın 8490 nüsxə kitab fondu var. Mütəmadi olaraq latın qrafikası ilə yazılmış kitablarla zənginləşir. Kitabxanada vətənpərvərlik mövzusunun təbliği də daim diqqət mərkəzindədir. Bu məqsədlə "Qəhrəmanlar unudulmur", "Qarabağın qan yaddaşı", "Quzanlı şəhidləri", "Qanlı yanvar", ,"Əsrin faciəsi" başlıqlı sərgilər təşkil edilir. Kitabxanada müxtəlif tədbirlər və albomlar, oxucu yaddaşları, yazıçı və şairlərin yubileyləri ilə əlaqədar kitab sərgiləri, məruzə və söhbətlər keçirilir. 20 yanvar, Xocalı faciəsi, 31 mart Azərbaycanlıların soyqırımı, "Heydər Əliyev müstəqil Azərbaycanın banisidir" adlı sual-cavab gecəsi, 8 mart Beynəlxalq qadınlar günü münasibətilə "Qadınlar ən böyük qüvvədir" adlı tədbir, "Novruz naxışları" adlı albom, Azərbaycanın tarixi abidələrini əks etdirən "Azərbaycan" adlı albom, "20 yanvar", "20 noyabr" adlı albom, "Kitabı qoru" və "Kitab dostları" adlı plakatlar hazırlanmış, Azərbaycanın görkəmli şairlərinin, yazıçılarının yubileyləri ilə əlaqədar tədbirlər və sərgilər M. Şəhriyar, İ. Əfəndiyev və b. yubileyləri ilə əlaqədar tədbirlər keçirilir.

Bir sözlə, kitabxanaçılıq çox çətin sənətdir. Kitabxanın minbir sirrinə tamam-kamal bələd olmaq üçün bəlkə də bir ömür azdır. Bu mənada, kitabxanaçı səbrli, dözümlü olmalı, peşəsinin sirlərinə tələm-tələsik yiyələnməyə çalışmamalıdır. Mən mütaliəsiz insanı ürəksiz bədənə bənzədirəm. Məndə yaxşı nə varsa, kitablara borcluyam. Bax buna görə də mənəvi sərvətimiz-kitaba qayğını həmişə üstün tutmalı və onu göz bəbəyi kimi qoruyub təbliğ etməliyik və edirik. Bizim kitabxanaya üz tutan hər bir oxucu buradan sevinclə, razılıq hissi ilə ayrılır.

**Lalə Mustafayeva**